# Avqust ayında İrandan 82% daha çox qonaq gəlib

Avqust ayında Azərbaycana 361 min əcnəbi qonaq gəlib ki, bu da 2018-ci ilin avqustuna nisbətən 42 min və ya 13.2% artım deməkdir. Səyahət edənlərin ən böyük qismini 9.3% artım və ya 111 min nəfərlə Rusiyadan gələnlər təşkil edib. Ən böyük artım 82.2% və ya 17 min nəfərlə İrandan gələnlər (37 min) arasında müşahidə olunub. Yüksək artım, həmçinin Gürcüstan vətəndaşları üçün də xarakterikdir. Belə ki, avqust ayında Gürcüstandan gələnləri sayı 68 minə çatıb ki, bu da keçən ilə nisbətdə 11 min və ya 20% artım deməkdir. Türkiyə, Mərkəzi Asiya və Cənubi Asiyadan gələn qonaqların sayı müvafiq olaraq 13%, 50% və 11.2% artaraq 27 min, 14 min və 11 minə çatıb. Əvvəlki aylarda olduğu kimi Cənubi Asiyada Hindistan (5.6 min; 19.1% artım) və Pakistan (4.6 min; 6.5% artım), Mərkəzi Asiyada Qazaxıstan (5.8 min; artım 39.7%) və Türkmənistan (5.1 min; artım 91.7%) Azərbaycanın ən böyük turizm bazarlarıdır.

Yaxın Şərq bölgəsindən Azərbaycana 58 min səyahətçi gəlib ki, bu da əvvəlki illə müqayisədə 9 min və ya 13.3% azdır. Bu say əsasən İraq, BƏƏ, Oman və Bəhreyndən gələn səyahətçilərin azalması ilə əlaqədardır. Yaxın Şərq bölgəsindəki ən böyük bazar yenə Səudiyyə Ərəbistanıdır. Buradan gələnlərin sayı 18.3% artaraq 22.6 minə çatıb.

**Qrafik 1: 2019 və 2018-ci ilin avqust ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




2019-cü ilin yanvar-avqust dövrü ərzində Azərbaycana səfər edən xarici vətəndaşların sayı 8.3% artaraq 2.1 milyona çatıb. Gələn əcnəbilərin yarısından çoxu, daha dəqiq desək, 53%-i Rusiya (653 min) və Gürcüstanın (472 min) payına düşür. Xüsusilə qeyd etmək lazımdır ki, Gürcüstandan gələn əcnəbi qonaqların sayında 22.8% və ya 87 min artım müşahidə edilib. Mərkəzi və Cənubi Asiya ölkələrindən gələnlərin sayı 40.4% və 38.1% artaraq müvafiq olaraq 83 min və 72 minə çatıb. Cənubi Asiya regionundan gələn qonaqların əksəriyyətini Hindistan (39 min; 68% artım) və Pakistan (29 min; 12.9% artım) vətəndaşları, Mərkəzi Asiyadan gələnlərin böyük hissəsini isə Türkmənistan (32 min; 82.9% artım) və Qazaxıstan vətəndaşları (31 min; 21.2% artım) təşkil edib. Türkiyədən gələnlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5.1% artaraq 203 min nəfər olub.

Yaxın Şərq və İrandan gələnlərin sayı 23 min və 22 min azalaraq müvafiq olaraq 264 min və 164 min nəfərə enib.

Qeyd etmək lazımdır ki, 2018-ci ilin dekabr ayında Çin, Hindistan, Almaniya, Rusiya, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan Turizm Bürosunun nümayəndəlikləri fəaliyyətə

başlayıb. Cari ilin yanvar-avqust dövrü ərzində bu ölkələrdən gələnlərin sayı keçən illə müqayisədə 35 min və ya 17% artaraq 237 min nəfərə çatıb.

**Qrafik 2: 2019 və 2018-ci ilin yanvar-avqust ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin avqust ayında və 2019-cu ilin yanvar-avqust aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | avqust | yanvar-avqust | avqust | yanvar-avqust |
| Rusiya | 111 398 | 653 823 | 101 959 | 622 530 |
| Gürcüstan | 68 220 | 472 433 | 56 842 | 384 658 |
| Yaxın Şərq | 58 557 | 263 994 | 67 530 | 286 544 |
| İran | 37 062 | 164 393 | 20 342 | 186 022 |
| Türkiyə | 27 209 | 203 703 | 24 088 | 193 757 |
| Mərkəzi Asiya | 14 168 | 82 834 | 9 441 | 59 015 |
| Şərqi Avropa | 11 182 | 72 758 | 9 762 | 67 081 |
| Qərbi Avropa | 11 118 | 82 061 | 9 429 | 66 285 |
| Cənubi Asiya | 10 915 | 72 153 | 9 814 | 52 248 |
| Şimal-şərqi Asiya | 4 768 | 28 027 | 3 737 | 18 930 |
| Amerika | 3 203 | 19 506 | 2 972 | 18 174 |
| Cənub-şərqi Asiya | 1 206 | 7 168 | 977 | 5 949 |
| Afrika | 1 057 | 6 648 | 1 187 | 5 659 |
| Digər | 1 296 | 6 735 | 1 261 | 5 777 |
| **CƏMİ** | **361 359** | **2 136 236** | **319 341** | **1 972 629** |